# Fərqli düşüncə

Xüsusi daycest buraxılışı

Xəbər və fikir jurnalı • №27 (67) • 05.12.2011

AzadliqRadiosu.az

Tələbələr "dilləndilər"... səh.2

«İnstitutun qapısını tanımadan ali təhsil aldım" səh.6

Əli Həsənov İranda hansı bəyanatı verdi? səh.7

Əvəz Zeynallı ev dustaqlığına buraxılmadı səh.8

93 manata yaşamaq olar? səh.10

Azərbaycanda iş yerləri artırsa, niyə maaş alanların sayı azalır? səh.11

Obama dükandan Amerikanı tənqid edən kitab aldı səh.13

Müsəlmanların öz «Facebook»u olacaq: salamworld.com səh.15

## "Oğlumun meyitini videoya çəkmişik – hər yeri yara idi"



*Naxçıvan MTN-də ölən gəncin yaxınları şikayət üçün Bakıya gəliblər* səh.4-5

## Azərbaycan korrupsiyaya görə 183 ölkə arasında 143-cü oldu

Dünyada korrupsiya ilə mübarizə sahəsində ixtisaslaşan ən nüfuzlu təşkilat olan Transparency İnternational dekabrın 1-də bu sahədə vəziyyətə dair illik hesabatını yayıb. Korrupsiyanı Qavrama İndeksinə görə, Azərbaycan 183 ölkə arasında 143-cü sıradadır. Bu, Beynəlxalq Şəffaflıq Təşkilatı – Transparency İnternationalın gəldiyi qənaətdir. səh.8

Kisə



Gənclər «Fəvvarələr meydanı»nda aksiya keçirdi səh.2

Rəbiyyət Aslanova: «Rafiq Tağının qətlinə fitva verənlər cəzalanacaqlar» səh.3

Neft ölkəsində vaqon evdə yaşayanlar səh.5

Eynulla Fətullayev: "Rafiq Tağını izləyən kameraların yaddaşında çox şey var" səh.9-12

# Gənclər «Fəvvarələr meydanı»nda aksiya keçirdi





**Dekabrın 3-də bir qrup gənc paytaxtın mərkəzində - «Fəvvarələr meydanı»nda aksiya keçirib. Aksiyaçılar «Əsgər ölümlərinə YOX deyək!», «Şəhidlər ölməz, Vətən bölünməz!» şüarları səsləndirib, Azərbaycan himnini oxuyublar. Aksiyaçılarla polis və mülkigeyimlilər arasında qarşıdurma yaranıb. «Azərbaycan» kinoteatrının qarşısında başlayan aksiya Nəsimi heykəlinə qədər davam edib.**



Aksiya zamanı Müsavat Gənclər Təşkilatının üzvləri Rauf Məmmədov, Tural Hacıbəyli, ADP Gənclər Təşkilatının sədri Cəmil Hacıyev, üzvü Emil, «Nida» təşkilatından Kənan Qasımlı və Dia.az-ın müxbiri Vaqif Sadıqlı saxlanıb. Saxlananlar arasında AXCP Gənclər Komitəsinin 5 üzvü də var - İlham Hüseyn, Nihad Hüseynov, Dəyanət Babayev, Sərvər İbrahimov və Elvin Baycan.

Aksiyada iştirak edən əsgər atalarından iki nəfərin də saxlanıldığı bildirilir - Etibar Quliyev və Bəyalı Köçəriyev. Saxlananları polisdə xəbərdarlıq etdikdən sonra buraxıblar. Aksiya zamanı jurnalistlərə də təzyiqlər olub.

***Maarif Çingizoğlu***



# Tələbələr "diləndilər"...

Dekabrın 1-də Azad Gənclik Təşkilatının üzvləri gediş-haqqının artırılmasına etiraz olaraq metronun «Elmlər Akademiyası» stansiyasının girişində səssiz aksiya keçiriblər. Gənclər əllərində «Tağı Əhmədov üçün dilənirəm», «Tələbəyəm, metroya minmək istəyirəm, 5 qəpik çatmır» şüarları tutublar. Polis iki aksiyaçını saxlayıb. Onlara Yasamal Rayon Polis İdarəsində xəbərdarlıq edib buraxıblar. Dekabrın 1-dən Bakı metrosunda gedişhaqqı 20 qəpik olub. Gedişhaqqının 15 qəpikdən 20 qəpiyə qaldırılması haqda qərarı Tarif (qiymət) Şurası noyabrın 28-də çıxarıb.

# Metroda dinc aksiya

Dekabrın 2-də Demokrat Gənclər Təşkilatının üzvləri və müstəqil gənclərin bir qrupu metroda gedişhaq-qının artmasına qarşı etiraz aksiyası keçirib. Onlar «Sahil bağı»ndan hərəkət edərək metronun «Sahil», «İçərişəhər» və «28 May» stansiyalarında üzərinə «Sus, yatanlar oyanar, 5+15+20?» yazılmış plakatları divarlara yapışdırıblar.

Bəzi vətəndaşlar da qiymət artımına münasibətdə gənclərlə həmrəy olduqlarını bildiriblər. «28 May» stansiyasında iki mülkigeyimli şəxs aksiyaya müdaxilə edib. Gənclərdən Rövşən Əsədovu saxlayaraq stansiyanın daxilindəki polis məntəqəsinə aparıblar.



# Rəbiyyət Aslanova: «Rafiq Tağının qətlinə fitva verənlər cəzalanacaqlar»


Rəbiyyət Aslanova

*Milli Məclisinin İnsan Hüquqları Komitəsinin sədri Rəbiyyət Aslanova AzadlıqRadiosuna müsahibəsində yazıçı Rafiq Tağının öldürülməsini «ağır və yolverilməz» cinayət adlandırıb:* «Rafiq Tağının öldürülməsi çox ağrılıdır. Bir Azərbaycan yazıçısının, Azərbaycan vətəndaşının belə qətlə yetirilməsi yolverilməzdir və ağır cinayətdir. Bu məsələ dövlət başçısının nəzarəti altındadır. Bu cinayət işinin açılması, cinayətkarın tapılması və cəzalandırılması gündəmdə olan məsələlərdəndir. Onun ölümünə fətva verənlər tezliklə qanun qarşısında öz cəzalarını çəkəcəklər».

**«AZƏRBAYCANDA SİYASİ MƏHBUS YOXDUR»**

*R.Aslanova Yeni il ərəfəsində əfv fərmanı haqda dəqiq məlumatlar olmadığını deyir:* «Ombudsmanın Milli Məclisə əfv fərmanı ilə bağlı müraciətinin cavabı necə olacaq, bunu biz dəqiq bilmirik. Çünki bu, birbaşa cənab prezidentin səlahiyyətində olan məsələdir. Bu baxımından Yeni il ərəfəsində əfv fərmanının olub-olmayacağı barədə dəqiq məlumatımız yoxdur».

R.Aslanova həbsdə olan müxalifət fəalları ilə bağlı məsələyə münasibət bildirməyib, Azərbaycanda siyasi məhbus olmadığını deyib. Müxalifətin İctimai Palatasının bu il aprelin 2-də keçirilən aksiyasında həbs olunmuş 14 müxalifət fəalı hazırda həbsdədir. Bundan əlavə, gənc fəallar Bəxtiyar Hacıyev və Cabbar Savalanlı, hüquq müdafiəçisi Vidadi İsgəndərli də həbsdədirlər. Amma fəallar həbslərini siyasi fəaliyyətlə əlaqələndirirlər.

# «Ayətullahın bəyanatında səslənən fikirlər müsəlmana yaraşmır»


Azerbaijan. Baku. Writer Rafig Tagi

*Bu barədə Azərbaycan Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin Rafiq Tağının qətli ilə bağlı yaydığı məlumatda deyilir. Komitənin mətbuat xidmətinin rəhbəri Saleh Aslanov AzadlıqRadiosuna bildirib ki, Rafiq Tağının qətlinə sevinənlərə heç bir halda haqq qazandırılmamalıdır:* «Yazıçı-publisist Rafiq Tağıya qarşı edilən sui-qəsd kirminal xarakterlidir. Hadisənin hansı səbəbdən törədildiyini istintaq müəyyənləşdirəcək. Lakin bütün hallarda insanın, xüsusilə də söz adamının qətlə yetirilməsi, yaxud ona qarşı sui-qəsd qəbuledilməzdir. Rafiq Tağının ölümündən sonra ayətullah Cavad Lənkəraninin verdiyi bəyanatda səsləndirilən fikirlər isə nəinki din xadiminə, hətta sadə müsəlmana da yaraşmır. Dini etiqadından asılı olmayaraq, insan həyatı dəyərlidir və başqasının ölümünə sevinməyə nə insani, nə də dini baxımdan haqq qazandırmaq olar».

Ayətullah Cavad Lənkərani atası Fazil Lənkəraninin Rafiq Tağı barəsində çıxardığı ölüm fətvasının icra olunmasını alqışlayan bəyanat yaymışdı.

Rafiq Tağı noyabrın 19-da naməlum şəxs tərəfindən bıçaqlanıb. Noyabrın 23-də isə müalicə aldığı xəstəxanada vəfat edib. Onu bıçaqlayan şəxs hələlik tapılmayıb. Rafiq Tağı yazılarında İranı və dini cəhaləti, Azərbaycan hakimiyyətini tənqid edirdi.




**AzadliqRadiosu.az saytında həmçinin oxuyun:**

- **«Taliban» Pakistanda məktəbləri partladır**
- **"Aşurada zəncir vurmayın, qan verin"**




# Rusiyada keçirilən seçkilərdə pozuntular olduğu bildirilir

Dünən Rusiya Dövlət Dumasına seçkilər keçirilib. 450 yerlik Duma uğrunda ölkədə qeydiyyatdan keçmiş bütün 7 partiyanın namizədləri mübarizə aparıb. Daxili İşlər Nazirliyi ötən gün seçki qanununun pozulmasıyla bağlı 3 cinayət işi qaldırıldığını xəbər verir.

AzadlıqRadiosunun müxbiri, müxtəlif KİV-lər, agentliklər və seçkidə mübarizə aparan partiyaların nümayəndələri bir sıra regionlarda pozuntulara yol verildiyini deyirlər. AzadlıqRadiosunun Moskva müxbiri heç bir izah olmadan Mərkəzi Seçki Komissiyasının informasiya mərkəzinə buraxılmayıb, akkreditasiyadan məhrum edilib. Bundan başqa, "Exo Moskvı" və " Kommersant" qəzeti də daxil olmaqla bir sıra iri saytlar haker hücumuyla bloklanıb.

Moskva polisi Qırmızı Meydan rayonunda 10-dan artıq adamı saxlayıb. Onlar icazəsiz aksiya keçirmək istəyiblər. Manej Meydanını hüquq-mühafizə orqanları əhatəyə alıblar. Eləcə də icazəsiz aksiya keçirilməsi gözlənən Triumfal meydanında təhlükəsizlik tədbirləri gücləndirilib. Müxalifətçi fəallar Dövlət Dumasına keçirilən seçkiləri qanunsuz sayırlar. Bəzi partiyalar seçki qeydiyyatından keçirilməyiblər.

Yerli qanunverici orqanın deputatı Aleksandr Kruqlikov isə deyir ki, 3 avtobus seçicinin Jeleznodorojnı rayonundan Zavoljsk rayonuna, yəni 25 km aralıya aparılmasını öz gözü ilə görüb. Avtobusların nömrə nişanı qeyd olunub. Avtobuslarda dövlət müəssisəsinin əməkdaşları da olublar. Müəssisənin başçısı Ulyanovsk şəhər dumasının deputatı Valeriy Bezrukovdur. Bundan başqa, tipik seçki pozuntuları da qeyd olunur. Məsələn, məntəqə seçki komissiyalarının sədrləri müşahidəçilərə vəsiqə verməkdən imtina edirlər. Başqa tipik pozuntu seçici siyahılarının yoxlanmaması, ölmüş insanların səsvermədə "iştirakıdır".

# "Oğlumun meyitini videoya çəkmişik – hər yeri yara idi"

## Naxçıvan MTN-də ölən gəncin yaxınları şikayət üçün Bakıya gəliblər

**Avqust ayında Naxçıvan MTN-də ölən Turac Zeynalovun yaxınları hadisədən şikayət etmək üçün Bakıya gəliblər. Onlar iddia edirlər ki, Turac Zeynalovun ölümünə səbəb onun Naxçıvan MTN-də işgəncəyə məruz qalmasıdır. Mərhumun bədənində olan zorakılıq əlamətlərinin videogörüntülərini AzadlıqRadiosuna təqdim edən Zeynalovlar deyir ki, Naxçıvan Muxtar Respublikasının müxtəlif dövlət orqanlarına şikayətləri nəticəsiz qalır, ona görə də ədalət dalınca Bakıya gəliblər.**

Xatırladaq ki, Turac Zeynalov avqustun 24-də Naxçıvan Milli Təhlükəsizlik Nazirliyinə çağırılıb və bir neçə gün orda saxlandıqdan sonra ölüb. Ailəsi iddia edir ki, Turac Zeynalov işgəncələr nəticəsində ölüb. Naxçıvan Milli Təhlükəsizlik Nazirliyi isə bildirir ki, dəri xərçəngindən əziyyət çəkən Turac Zeynalovun səhhəti avqustun 28-də istintaq təcridxanasından nazirliyə gətirilərkən pisləşib. Ona tibbi yardım göstərilib, amma bununla belə həyatını xilas etmək mümkün olmayıb. O zaman Respublika Prokurorluğu və Milli Təhlükəsizlik Nazirliyi məsələni araşdırdığını bildirmişdi.

Noyabrın 30-da Turac Zeynalovun atası Şuriyyə Zeynalov və həyat yoldaşı Gülnar Zeynalovanın "İşdən Sonra" proqramına müsahibə veriblər. Proqramda deyilənləri ixtisarla təqdim edirik.

*(Söhbətin audio yazısını AzadliqRadiosu.az saytında dinləyə bilərsiniz)*



Şuriyyə Zeynalov

Şuriyyə Zeynalov:

*- Avqustun 24-də axşamçağı mənim oğlumu çağırdılar Milli Təhlükəsizlik Nazirliyinə. Ayın 25-də isə gəlinlə məni çağırdılar həmin idarəyə. Orada oğlumla görüşdüm və dedim günahın varsa boynuna al. Dedi ata, mənim günahım yoxdur. Oradakı işçilərdən Pərvizə dedim ki, oğlumu niyə döymüsən?*

Xədicə İsmayılova:

*- Döyüldüyünü haradan bildiniz?*

- Yeriyə bilmirdi, başı da yara idi.

*- Yəni üzünü gördünüz orada?*

- Hə, üzünü gördüm. Öpüşdük. Biz kəndə qayıtdıq. 3 nəfər müstəntiq gəlib evimizi yoxladı. Sonra geri qayıtdılar. Ayın 28-i o biri oğlum getdi ki, qardaşını görsün. Dedilər ki, Turac ölüb. MTN-in damında ölüb. Onun boynunda, ayağında yaralar var. Videosunu çəkmişik. Bizim istəyimiz odur ki, bizim ailənin əmin-amanlığını qoruyasınız. Bizim üstümüzdən vətən xaini adını götürsünlər.

*- Gülnar xanım, həyat yoldaşınızı sonuncu dəfə hansı vəziyyətdə görmüsünüz?*

Gülnar Zeynalova:

- Biz görüşə gedəndə gördüm ki, Turac yeriyə bilmir. Dedim ki, niyə yeriyə bilmir? Mənə cavab verdilər ki, ayağı ağrıyır. Dedim axı onun ayağı ağrımayıb. Bildirdilər ki, bir-iki şillə vurmuşuq ki, ağıllansın.

Orada Pərviz Hüseynov adlı işçidən soruşdum ki, bunu niyə vurmusunuz? Cavab verdi ki, bacı, sən öz uşağını tərbiyələndirmək üçün döymürsən? Biz də ona görə vurmuşuq. Bir-iki tərbiyə şilləsidir. Ağıllandırmaq üçün döymüşük onu. Mən görəndə yeriyə bilmirdi, bəzi yerlərində şişlər var idi, başında şişlər var idi, üzü şişmişdi.

Xədicə İsmayılova:

*- Şuriyyə bəy, dediniz ki, videoya çəkmisiniz. O videoda nələr var? Harada çəkilib?*

- Özümüz çəkmişik. Turacın meyitini evimizdə çəkmişik. Lap istəsələr ölünü qəbirdən çıxarmaq üçün yenidən ekspert göndərmək də olar. Amma buranın ekspertlərini. Bizə Naxçıvan eksperti lazım deyil.

*- O videoda nə görünür?*

- Başında qan dayanmırdı. 2 salafan keçirmişik başına. Boğazını boğmuşdular. Ayaqlarında yaralar var idi. Videoda açıq göstərilib. Bizim heç bir şikayətimiz yoxdur. Biz istəyirik ki, bu "Vətən xaini" adı götürülsün. Çünki vətən xaini adı bütün kəndin adını ləkələyir.

**Şuriyyə Zeynalovun təqdim etdiyi video kadrlar:**

- Deyirsiniz ki, heç kimdən şikayətiniz yoxdur. Bəs, Şuriyyə bəy, oğlunuzu sizə verəndə sizdə sual doğmadı ki, niyə belə haldadır? Və niyə öldürüblər oğlunuzu?

Şuriyyə Zeynalov:

- Turacı verəndə bizim kənddən çox adam getmişdi rayona. Bizi azdırdılar. Hətta mən müstəntiqə dedim ki, bizim icazəmiz olmadan onu niyə yarmısınız? Dedi ki, elə bir şey yoxdur. Dedim ki, mən bunu televizordan eşitmişəm ki, icazə olmadan meyiti yarmaq olmaz. Bizim ancaq istəyimiz odur ki, bizim üstümüzdən o maddəni götürsünlər. Bizim təhlükəsizliyimizi qorusunlar.



Gülnar Zeynalova

Gülnar Zeynalova:

- Və xahiş edirəm, kim öldürüb onu cəzalandırsınlar. Öldürənlərdən şikayətçiyəm. Əgər həqiqətən onun günahı var idisə, sübut edərdilər, iş kəsərdilər. Sonra deyirdilər ki, Turacda xərçəng xəstəliyi var idi. Onda bu xəstəlik olmayıb.

*- Hansısa dövlət orqanlarına bununla bağlı müraciət etmisinizmi?*

Gülnar Zeynalova:

- Getməmişik. Amma gedəcəyik. Naxçıvanda getmişik. Orada da baxmayıblar.

*- Hadisə baş verəndən dərhal sonra şikayəti davam etdirməməyinizin səbəbi nə idi?*

Şuriyyə Zeynalov:

- Biz övlad itirmişdik. Deyirdik ki, bu övladı dövlətə bağışlayırıq. Amma bizə "Vətən xaini" adı qoyanda daha güzəştə getməyə heç nə qalmadı.

*- Kim deyir ki, oğlunuz "Vətən xainidir"?*

**(davamı 5-ci səhifədə)**

# Neft ölkəsində vaqon evdə yaşayanlar



**Paytaxtı bəzəməyə başı qarışanlar kəndlərdə vaqon evində həyat sürənləri də yada salanda, yəqin ki, ilk sevinənlərdən biri Qazaxın Fərəhli kənd sakini Şahmar Əhmədov olacaq.**

11 il əvvəl minaya düşərək ayağını itirmiş Şahmar Əhmədov AzadlıqRadiosunun «Qaynar Xətt»inə şikayət edib ki, azyaşlı uşaqları və həyat yoldaşı ilə 7 ildən artıqdır 9 metrlik vaqon evdə yaşayır. Qazax Rayon İcra Hakimiyyətinə gedib ev istəyəndə, «hələ növbən çatmayıb, gözlə» deyib qapıdan geri qaytarırlar. Deyir Fərəhli onun dədə-baba yurdudur, ancaq öz dədə-baba yurdunda vaqon həyatı sürür:

**«HƏR DƏFƏ DEYİRLƏR NÖVBƏN ÇATMAYIB»**

«Hər dəfə evlər paylananda gedirəm icra hakimiyyətinə, deyirlər hələ gözlə, sənin növbən çatmayıb. Deyirəm nə oldu, elə hər dəfə eyni sözü deyirsiniz? Bəs mənim növbəm nə vaxt çatacaq? Deyirlər yenə ev düşmədi sənə, gələn dəfəyə qaldı. Axırıncı dəfə gedəndə isə dedilər ki, nə var gəlib hər dəfə ev istəyirsən? Camaat pulunu verir alır, sən də gətir pulunu, ver, al. Çıx get evinə, camaatın vaxtını boş yerə alma burda».

Şahmar Əhmədov deyir ki, 2000-ci ildə qoyun-quzu otararkən kəndin sərhədə yaxın hissəsində minaya düşüb, ayağının birini amputasiya ediblər, qalıb tək ayağın ümidinə. Bu da ona işləyib ailəsini saxlamağa, çoxdan əldən düşmüş vaqon evin çürüklərini, söküklərini bağlamağa imkan vermir:

**«VAQONU KÖÇKÜNLƏRDƏN ALMIŞAM»**

«7 il əvvəl həmin vaqonu şəhərdə yaşayan köçkünlərdən almışdım. Özlərinə ev tikmişdilər, bu vaqonu da mənə satdılar. Yağış içərisinə yağır, qızdırmaq olmur. Altı çürük-çürükdür, içəridən baxanda çöl görünür. Kiçik qızım 1-ci sinfə gedir. Tez-tez xəstələndiyinə görə dərsdən qalır. Gedirəm icra hakimiyyətinə, deyirəm axı uşaqlar soyuqdan ölürlər, tez-tez xəstələnirlər, mən onları məktəbə göndərə bilmirəm. Deyirlər biz sənin üçün uşaq saxlayanıq? 105 manat təqaüd alıram. 130 manat da ünvanlı sosial yardımdır. Ancaq bir ay alıram, 2 ay ala bilmirəm. İcra hakimiyyətindən deyirlər ki, təqaüd də alırsan, sosial yardım da, daha bizdən nə istəyirsən? Get, özünə ev tik».

Qazax Rayon İcra Hakimiyyətindən «Qaynar Xətt»ə dedilər ki, Şahmar Əhmədovun mənzil məsələsi icra hakimiyyətinin diqqətindədir. Hazırda icra hakimiyyəti şəhid ailələri və müharibə əlillərinin mənzil şəraitlərinin yaxşılaşdırılması ilə məşğuldur. Ancaq bununla belə, Şahmar Əkbərovun ailəsi ilə birlikdə müvəqqəti də olsa sığınması üçün tədbir görəcəklərini bildirdilər.

Şahmar Əhmədov isə deyir ki, vəziyyəti ona gözləməyə imkan vermir. Aldığı təqaüd tez-tez soyuqda yüksək hərarətə tutulan azyaşlı uşaqlarının dava-dərmanına gedir.

***Esmira Cavadova***

**“Qaynar Xətt”** dinləyici şikayətləri əsasında hazırlanan verilişdir. Sizin də şikayətiniz və ya məlumatınız varsa, qaynar xəttə zəng edin. **Telefon 436 77 41.** Bizə zəng edənlər mütləq koordinatlarını (ad, familiyasını və telefonunu) saxlamalıdır. **AzadliqRadiosu.az** saytına daxil olmaqla da verilişlə əlaqə saxlaya bilərsiniz.

Aparıcı Esmira Cavadova.

E-mail: esmer_alda@mail.ru




# “Oğlumun meyitini videoya çəkmişik– hər yeri yara idi”

*(əvvəli 4-cü səhifədə)*

- Milli Təhlükəsizlik Nazirliyi bununla bağlı maddə yazıb. Heç biz bilmirik o, dəqiq nə vaxt ölüb. O, bum-buz idi. Onun meyitinə isti su dəyən kimi qanı durmurdu.

*- Şuriyyə bəy, siz hansısa sənəd imzalamısınızmi?*

- Bizi həmin o müstəntiqlər - Pərviz, Seymur və İlqar apardılar prokurorluğa. Orda qələmi əlimizə verdilər ki, belə yazın. Prokuror bizdən bir kəlmə soruşmadı ki, bura nə üçün gəlmisiniz? Sizin cinayətiniz nədir? Qorxudan, əzabdan, balalarımdan, özümdən qorxdum. Dedim ki, dövlətə bağışlayıram. Yetim balası qalıb, gəlinim dul qalıb. Onu bağışlamaq olar? Bizi maşına basdılar, zorla apardılar. Mənə dedilər ki, belə yaz. Mən də yazdım.

*- Nə yazdınız?*

- Yazdım ki, mən oğlumun ölümünü dövlətə bağışlayıram.

*- Elə də yazdınız?*

- Hə. Bəs, neynəyim? Ölüm ayağıdır axı. Balalarım əldən gedir axı.

*- Təhdid edirdilərmi sizi? Hədə-qorxu gəlirdilərmi?*

- Bəs, niyə etmirdilər ki? Naxçıvanda qayda-qanun yoxdur. Onsuz da bizi məhv edəcəklər.

*-Necə hədə-qorxu gəlirdilər sizə?*

- Bizim yasa adam qoymadılar. Jurnalistləri buraxmadılar. Xahiş edirəm ki, indi mənim övladlarımın təhlükəsizliyini qorusunlar.

*- İndi də təhlükə varmi?*

- Bəli, var.

*- Gülnar xanım, sizə də ərizə yazdırdılar?*

Gülnar Zeynalova:

- Bəli, yazdırdılar.

*- Nə yazdınız həmin ərizədə?*

- Bizə yazdırdılar ki, onun ölümü ilə bağlı heç bir şikayətim yoxdur. Dedilər yaz ki, o, xərçəng xəstəliyindən əziyyət çəkirdi. Mən də dedim ki, belə yaza bilmərəm. Sonra özümü bağışlaya bilmərəm. Dedilər ki, narahat olmayın, yazın. Başımızın üstündə durdular, məcbur etdilər ki, yazaq.

*- Həyatınız üçün qorxursunuzmu?*

- Bəli. Deyirəm ki, bəlkə də buradan çıxanda bizim başımıza nəsə bir iş gələ bilər.

# «İnstitutun qapısını tanımadan ali təhsil aldım”

*39 yaşlı Pərviz Heydərovu çoxları yalnız mətbuatda gedən imzasından tanıyır. O, nə dost-tanışla görüşə çıxa, nə də yazılarını qəzet redaksiyasında yaza bilir. Deyir, heç ayaq üstə durub gəzdiyi günləri xatırlamır da. Bir yaşından sonra tədricən gəzməkdən məhrum olub, valideynləri müalicə üçün onu xarici ölkələrə aparsa da, xeyri olmayıb. Pərviz Heydərov ömürlük əlil arabasına məhkum olub. Amma ayaq üstə dura bilməsə də, arzularının ardınca getməyi bacarıb. Əlil uşaqlar üçün evdə təhsili həyata keçirən 219 saylı orta məktəbi uğurla bitirib:*

«O vaxt sovetlər dönəmində qanunvericilikdə elə bir şey yox idi ki, kimsə evdə ali təhsil alsın. Təhsil Nazirliyinə məktub yazdım ki, şərait yaratsın, məndən evdə imtahan götürsünlər, biliyimi qiymətləndirsinlər və mən qiyabi təhsil ala bilim. Nazirlik razılıq verdi, 3 dəfə evə gəlib məndən imtahan götürdülər, hər 3 imtahandan 4 aldım».

**«VALİDEYNLƏRİMƏ MİNNƏTDARAM»**

Pərviz Heydərovun arzuları bununla da tükənmir. Təhsil aldığı ali məktəbin qapısını belə tanımayan, yalnız ev şəraitində dərs alan Pərviz tələbə adını qazanar-qazanmaz işləmək sevdasına düşür. Savadına görə müəllimləri arasında qazandığı hörmət bu dəfə də işinə yarıyır və onu İqtisadiyyat Nazirliyi nəzdində Elmi Tədqiqat İnstitutuna işə götürürlər. Artıq 17 ildir ki, həmsöhbətim evdə fəaliyyət göstərməklə həm bu institutda çalışır, həm də bir neçə mətbuat orqanında iqtisadi məqalələrlə çap olunur. Deyir, kənardan mənəvi dəstəyin olması kifayətdir ki, əlil də bu cəmiyyətdə özünə layiqli yeri tapsın: «Hər şey mühitdən asılıdır. Mən bu məsələdə valideynlərimə minnətdaram ki, məndən oxumağı tələb ediblər. Hətta o vaxt uzaq qohumlar anamı qınayırdılar ki, gəzə bilməyən uşaqdan nə istəyirsiz, niyə ona əziyyət verirsiz? Anam isə mənə deyirdi ki, «mən ali təhsilliyəm, amma sənə görə evdə oturmalı olmuşam, müəllimlərinə hər gün qapı açıram, sən də oxumalısan». Müəllimlərim də çox tələbkar idi, əlil olduğuma görə mənə güzəştə getmirdilər. Nə uğur əldə etmişəmsə, onlara minnətdaram».

**«AMERİKADA DOĞULSAYDIM...»**

*Amma Pərviz yaşadığı cəmiyyətdə əlillərə münasibətdən gileylidir, xüsusən də Birləşmiş Ştatlara 10 günlük səfərindən sonra:*

«Amerikada doğulsaydım, indi konqresdə oturmuşdum. Orada bizim kimilərə geniş imkanlar verilir. Burada bir gün Bakı Şəhər İcra Hakimiyyətinin binası qarşısından keçirdim, polis arabamı



Pərviz Heydərov

sürənə dedi ki, «bir az aralıdan sür, bura rəsmi binadır». Vaşinqton meriyasında isə əlil arabası üçün xüsusi yer var idi. Merin köməkçisi ilə görüşəndə soruşdum ki, «axı bura restoran, kinoteatr deyil, nə ehtiyac var ki, əlil arabası üçün yer qoymusuz?». O mənə dedi ki, «burada sənin kimi iki nəfər işləyir». Dəhşətə gəldim».

**«MƏN RUHƏN ÖZÜMƏ UYĞUN OLMAYAN İNSANAM»**

*Pərviz Heydərov deyir ki, cəmiyyətin əlillərə münasibəti kimi, əlillərin də özlərinə verdiyi qiymətdə irəliləyiş olmalıdır:* «Mən ruhən özümə uyğun olmayan insanam. Elə arzularım, istək -lərim, maraqlarım var ki, o heç gəzən adamda yoxdur. Pulu çox sevirəm, fiziki gücüm olsaydı, daha çox qazanmaq həvəsində olardım. Mən iş tapa bilməyən cavanları da başa düşə bilmirəm, savadın, bacarığın varsa, sənin üçün hər yerdə iş tapılar».

# Azərbaycanda 488 min 551 əlil var



Hazırda Azərbaycanda 488 min 551 nəfər əlil kimi qeydiyyatdan keçib. Onlardan 60 minə yaxını uşaqlardır. Bunu Azərbaycan Əlil Təşkilatları İttifaqının sədri Davud Rəhimli APA-ya deyib. O, qeyd edib ki, dünyanın əksər ölkələrində əlillərin sayı yerli əhali ilə nisbətdə 10-15 faizdirsə, Azərbaycanda bu rəqəm 5 faizdən artıq deyil: «Bu, sevindirici haldır».



Misir Mərdanov

# Nazir: «455 müəllimin saxta diplomla işlədiyi məlum olub»

*«Azərbaycanda təhsil sənədlərinin ekspertizası məqsədi ilə 150 min müəllimdən 1/3-dən çoxunun, yəni 58 970 nəfərin sənədləri araşdırılıb».* Bunu dekabrın 3-də Təhsil Nazirliyində keçirilən kollegiya iclasında nazir Misir Mərdanov deyib. Nazir bildirib ki, əsasən 1990-cı ildən bəri olan sənədlər araşdırılıb. Araşdırmalar nəticəsində saxta diplomla işləyən 455 nəfər müəyyən edilib, onların hamısı işdən çıxarılıb.

260 nəfərin lisenziyası olmayan müəssisələrin, 468 nəfərin leqallaşdırılmamış ali məktəblərin diplomları ilə işlədiyi aşkar edilib. Bu, əsasən qonşu ölkələrlə sərhəd olan rayonlara aiddir. Araşdırmalar özəl təhsil müəssisələrinin arayışı ilə 11 nəfərin, müxtəlif kursların vəsiqəsi ilə 54 nəfərin işlədiyini aşkarlayıb. M.Mərdanov araşdırmaların davam etdiriləcəyini deyib.

# Əli Həsənov İranda hansı bəyanatı verdi?


Əli Həsənov

*«Azərbaycan heç zaman kənardan ölkə həyatına süni şəkildə demokratiya və dini təriqətlərin idxal olunmasına yol verməyəcək».* Bunu İranda səfərdə olan Prezident Administrasiyasının ictimai-siyasi şöbəsinin müdiri Əli Həsənov İranın Milli Radio və Televiziya Təşkilatının sədri İzzətullah Zərqami ilə görüşündə deyib (AzərTAc). Əli Həsənov görüşlərdə İran kütləvi informasiya vasitələrinin antiazərbaycan təbliğatının dayandırılmasının zəruriliyini vurğulayıb.

«Azərbaycanın və İranın tarixi taleyi tələb edir ki, onlar mehriban qonşuluq və səmimi dostluq şəraitində yaşasınlar. Bunun üçün hər iki tərəf bir-birinin ictimai-siyasi həyatına, daxili işinə və idarəçiliyinə hörmətlə yanaşmalıdır. Azərbaycan Respublikası hüquqi və dünyəvi dövlətdir. Azərbaycan xalqı ümummilli lider Heydər Əliyevin rəhbərliyi ilə demokratik inkişaf yolunu şüurlu olaraq seçibdir və özünün işıqlı gələcəyinin təmin edilməsi üçün bu yolu bundan sonra da davam etdirmək əzmindədir. Bu siyasət Prezident İlham Əliyevin rəhbərliyi ilə uğurla davam etdirilir. Azərbaycan insan hüquqlarının qorunmasına, azad sözün və mətbuatın inkişafına, eləcə də dini etiqad azadlığına hörmətlə yanaşır və bunların hər birinə təminat verir. Lakin Azərbaycan heç zaman kənardan ölkə həyatına süni şəkildə demokratiya və dini təriqətlərin idxal olunmasına yol verməyəcək».

İran MRTT sədri İzzətullah Zərqami ilə görüşdə sərhədətrafı yayım siyasəti, xüsusən də son dövrdə iki ölkənin real vəziyyətini təhrif edən ayrı-ayrı KİV-lərin fəaliyyəti müzakirə edilib. Və bu yöndə razılıq əldə olunub.

# Аллахшукюр Пашазаде в Ереване

Председатель Управления мусульман Кавказа (УМК) шейх-уль-ислам Аллахшукюр Пашазаде находится с первым визитом в Ереване с целью участия в заседании президиума Межрелигиозного совета СНГ 28-29 ноября. Об этом сообщают азербайджанские СМИ. Подробности о повестке визита не разглашаются.

В апреле 2010 года в рамках Всемирного религиозного саммита в Баку Аллахшукюр Пашазаде, Патриарх Московский и всея РусиКирилл и Католикос всех армян Гарегин Второй подписали декларацию по Карабахской проблеме. От визита в Ереван отказался Католикос-Патриарх всея Грузии Илия Второй. Тем временем, в Баку «Организация освобождения Карабаха» осудила поездку Пашазаде в Ереван.

"Армянская церковь и ее католикос были вдохновителями политики оккупации и террора против Азербайджана. Нет никакого оправдания Пашазаде, который, зная все это, все равно поехал на поклон к Гарегину II, при том, что почти ежедневно азербайджанские солдаты становятся мишенью армянских пуль. Лучше бы Пашазаде взял пример с грузинского патриарха. Своим визитом шейх позорит весь азербайджанский народ",- говорится в заявлении организации.

# Американская просьба о турецких санкциях

Вице-президент США Джо Байден в ходе визита в Турцию призвал руководство этой страны ввести новые санкции против Ирана - в связи с последними сообщениями о том, что иранская ядерная программа может развиваться в военных целях. В опубликованном в пятницу интервью турецкой газете Hürriyet Байден заявил, что Вашингтон по-прежнему поддерживает дипломатическое решение иранской проблемы, но призывает все страны-партнеры США, включая Турцию, оказать Вашингтону помощь.


Арестованный активист Бахтияр Гаджиев, Баку, 20 апреля 2011

# Европейцам Бахтияра "покажут" в больнице

Отбывающий тюремное наказание молодежный активист Бахтияр Гаджиев, будет переведен из колонии в Лечебное учреждение Пенитенциарной службы Азербайджана, передает Turan. Сообщается, что это не связано с состоянием здоровья Гаджиева, а вызвано предстоящей встречей с ним делегации Комитета против пыток Совета Европы.

Инициатором перевода Гаджиева в тюремную больницу явилось руководство колонии, поскольку в пенитенциарном учреждении нет условий для такой встречи. 6 декабря в Верховном суде Азербайджана состоится рассмотрение кассационной жалобы Гаджиева. Участие самого Гаджиева на этом заседании под вопросом. Бахтияр Гаджиев баллотировался в депутаты на парламентских выборах 2010 года. После выборов он заявил, что имеет «доказательства фальсификаций выборов».

Он был также одним из организаторов в социальной сети Facebook назначенной на 11 марта сего года акции протеста "Великий народный день". В преддверии акции, 4 марта, Гаджиев был арестован в Гяндже по обвинению в уклонении от службы в армии. 18 мая суд приговорил его к 2 годам лишения свободы. Впоследствии Апелляционный суд Гянджи оставил в силе этот вердикт. Многие местные и международные правозащитные структуры признали Гаджиева политзаключенным. Международная правозащитная организация Amnesty Internationalпризнала Гаджиева "узником совести".




# Azərbaycan korrupsiyaya görə 183 ölkə arasında 143-cü oldu

**Korrupsiyanı Qavrama İndeksinə görə, Azərbaycan 183 ölkə arasında 143-cü sıradadır. Bu, Beynəlxalq Şəffaflıq Təşkilatı – Transparency İnternationalın gəldiyi qənaətdir. Dünyada korrupsiya ilə mübarizə sahəsində ixtisaslaşan ən nüfuzlu təşkilat olan Transparency İnternational dekabrın 1-də bu sahədə vəziyyətə dair illik hesabatını yayıb.**

**YENİ ZELANDİYA ƏN AZ KORRUPSİYALAŞMIŞ ÖLKƏ OLUB**

183 ölkəni əhatə edən hesabatda korrupsiya sahəsində ən yaxşı vəziyyətdə olan dövlət kimi Yeni Zelandiya göstərilir. Ondan sonra siyahının yuxarısında ilk 10 yerdə Danimarka, Finlandiya, İsveç, Sinqapur, Norveç kimi ölkələr tutur. Ən sonda isə Somali qərarlaşır. Siyahının axırında Türkmənistan, Özbəkistan, Əfqanıstan, Şimali Koreya kimi ölkələr gəlir.

**AZƏRBAYCAN QAFQAZDA LİDERLİYİNİ ƏLDƏN VERMİR... KORRUPSİYADA**

Qafqazda ən az korrupsiyalaşmış ölkə Gürcüstan göstərilir. Hesabatda onun yeri 64-cüdür. Ermənistan isə 129-cu sırada qərarlaşır. Yəni artıq bir neçə ildir ki, Transparency İnternationalın hesabatında Qafqazın ən korrupsiyalaşmış ölkəsi kimi Azərbaycan göstərilir. Azərbaycan özünün sərhəd qonşuları arasında korrupsiyanın səviyyəsinə görə yalnız Türkmənistanı qabaqlayır, Rusiya ilə eyni səviyyədədir. Amma Rusiya keçənilki 154-cü yerini 10 pillə yaxşılaşdıraraq 143-cü olub. Keçən il 134-cü yerdə olan Azərbaycan isə bu il 143-cü olub.

**İLİN ƏVVƏLİNDƏN HÖKUMƏTİN ANTİKORRUPSİYA KAMPANİYASI VARDI, AMMA...**

Amma Transparency İnternational qeyd edir ki, ölkələrin vəziyyətini illər üzrə müqayisə etmək mümkün deyil. Çünki dövlətlərin sırası hər il keçriilən müxtəlif məzmunda və müxtəlif sayda sorğular əsasında müəyyən edilir. 2011-ci ilə aid olan hesabatda da dövlətlərin sırası 20-yə yaxın sorğu və qiymətləndirmə əsasında tərtib edilib. Azərbaycan hökuməti bu ilin əvvəlindən ölkədə korrupsiyaya qarşı ciddi tədbirlər görüldü - yünü bildirir. Bu kampaniya başlayarkən ilk aylarda onun rüşvətin səviyyəsini nisbətən azaltması barədə hətta ictimai təşkilatlar da danışırdılar. Amma bir neçə ay sonra rüşvətxorluğun əvvəlki səviyyəyə qayıtdığı barədə tənqidlər gücləndi.

Azərbaycanın sərhəd qonşularında korrupsiya səviyyəsi Transparency İnternationala görə son bir neçə ildə aşağıdakı kimi olub:

| Ölkələr | 2011 | 2010 | 2009 | 2008 |
|---|---|---|---|---|
| **Türkiyə** | 61 | 56 | 61 | 58 |
| **Gürcüstan** | 64 | 68 | 66 | 67 |
| **Ermənistan** | 129 | 123 | 120 | 109 |
| **Azərbaycan** | 143 | 134 | 143 | 158 |
| **Rusiya** | 143 | 154 | 146 | 147 |
| **Qazaxıstan** | 120 | 105 | 120 | 145 |
| **İran** | 120 | 146 | 168 | 141 |
| **Türkmənistan** | 177 | 172 | 168 | 166 |

**TRANSPARENCY İNTERNATİONAL XƏBƏRDARLIQ EDİR**

Transparency İnternational hesabatında qeyd edir ki, korrupsiya vəba kimi olduqca çox sayda ölkəyə yayılıb. Təşkilat xəbərdarlıq edir ki, hazırda dünyanı bürüyən etiraz dalğaları əksər hallarda korrupsiya və iqtisadi qeyri-sabitliyə görə alovlanır. Etirazlara qoşulan vətəndaşlar açıq-aşkar liderlərinin və dövlət qurumlarının şəffaf və məsuliyyətli olduğuna inanmadıqlarını deyirlər. Ona görə də liderlər daha səmərəli hökumət barədə tələbləri diqqətlə nəzərdən keçirməlidirlər.




**Dəyərli oxucular!**
AzadlıqRadiosunun korrupsiya halları ilə bağlı maraqlı araşdırmalarını, xəbər və reportajlarını **AzadlıqRadiosu.az** saytında **"Korrupsiometr"** bölümündə oxuyun. Səs yazılarını dinləyin, videolara baxın.

# Əvəz Zeynallı ev dustaqlığına buraxılmadı

**Dekabrın 1-də Nəsimi Rayon Məhkəməsində «Xural» qəzetinin baş redaktoru, həbsdə olan Əvəz Zeynallının ev dustaqlığına buraxılması ilə bağlı verdiyi ərizəyə baxılıb və təmin olunmayıb. İclasa hakim Etibar Hümbətov sədrlik edib. İclasda Əvəz Zeynallının vəkili Elçin Sadıqov vəsatət verib ki, Əvəz Zeynallının həbsdə saxlanması üçün heç bir əsas yoxdur. O, baş redaktorun ya ev dustaqlığına buraxılmasını, ya da həbs-qətimkan tədbirinin girovla əvəz olunmasını xahiş edib. Vəkil bildirib ki, Əvəz Zeynallı ilə konfedensial söhbətlər apara bilmir.**

Elçin Sadıqov: «Bakı İstintaq Təcridxanasında Əvəz Zeynallı ilə görüşərkən söhbətlərimiz dinlənilir, sənədlərimiz yoxlanılır. Mən müvəkkilimlə görüşdən çıxarkən təcridxana rəhbərliyi onunla görüş zamanı apardığım qeydləri yoxlayır. Müvəkkilimlə konfedensial söhbətlər aparmaq üçün onun barəsindəki həbs-qətimkan tədbirinin həbslə əlaqəli olmayan tədbirlə dəyişdirilməsi vacibdir».

1 saata yaxın davam edən iclasın sonunda hakim Əvəz Zeynallı barəsindəki həbs-qətimkan tədbirinin qüvvədə


Əvəz Zeynallı

saxlanması barədə qərar çıxarıb. Vəkil AzadlıqRadiosuna bildirib ki, qərardan apelyasiya şikayəti veriləcək.

***Esmira Cavadova***

# "Rafiq Tağını izləyən kameraların yaddaşında çox şey var"


Eynulla Fətullayev

### «TƏƏCCÜBLÜDÜR Kİ, NİYƏ İSTİNTAQIN GƏLDİYİ KONKRET NƏTİCƏ YOXDUR»

*«Yazıçı Rafiq Tağının qətlinə görə adi bir islam fanatını tutsalar heç təəccüblənməzəm».* Noyabrın 19-da bıçaqlanmış yazıçı-publisist Rafiq Tağının qətlini araşdıran Jurnalist Təhqiqat Qrupunun üzvü Eynulla Fətullayev AzadlıqRadiosuna belə deyib.

Onun sözlərinə görə, qrupun üzvləri yazıçının bıçaqlandığı ərazidə yerləşən dükanlardakı kameraların yaddaşlarına baxıblar. Və bu zaman maraqlı faktlarla üzləşiblər.

### QƏTLDƏN 2 HƏFTƏ ÖNCƏ KAMERANI KİM KƏSDİ?

- Rafiq Tağının qətlə yetirildiyi küçədə bir İran mağazası var. Həmin mağazadakı kameranın müşahidə imkanları daha böyükdür. Əfsuslar olsun ki, onun «şnur»ları kəsilib. Mən həmin dükanın sahibindən soruşdum ki, bu hadisə nə zaman baş verib. Cavabında dedi ki, noyabrın 5-də. Çox maraqlıdır, qətldən təqribən iki həftə öncə. Amma mənə aydın izahat verilmədi ki, kameranın işinə niyə müdaxilə edilib? Hesab edirəm ki, bu, vacib məqamdır. Çünki qətl həmin mağazadan cəmi 4-5 metr aralıda baş verib. Amma başqa kameranın yaddaşında biz bir nəfəri gördük. Rafiq Tağının qətlindən bir neçə dəqiqə öncə bir nəfər əlində bükülü tələsik addımlarla həmin yerə irəliləyir. Nə 15 dəqiqə öncə, nə 15 dəqiqə sonra – biz kameranın yaddaşına saat 22.40-a qədər baxıb təhlil etmişik – ordan heç kim keçmir. Başqa maraqlı məqam nədir. İstintaq orqanları həmin kameraların yaddaşına baxsalar da, götürməyiblər. Bizim qrupun üzvləri baxdıqdan sonra həmin kameranın yaddaşı hüquq-mühafizə orqanları tərəfindən aparılıb.

### «O KAMERALARIN YADDAŞINDA ÇOX ŞEY VAR»

*- Həmin kadrda əlində bükülü keçən şəxsin üzünü görmək mümkündürmü?*

- Mümkün deyil. Amma yəqin xüsusi avadanlıqla görmək olar. Bir də... Axı orda hüquq-mühafizə orqanlarının da yerləşdirdiyi kameralar var. Şəhərdəki işıqforlarda da xüsusi kameralar quraşdırılıb. Bizim həmin kameralara çıxışımız yoxdur. Amma düşünürəm ki, o kameraların yaddaşında çox şey var. İkincisi, həmin ərazidə «Unibank»ın da kamerası var. Biz banka da sorğu göndərəcəyik. Yadınızdadırsa, Rafiq Tağı deyirdi ki, qatil arxaya qaçdı, yəqin orda onu maşın gözləyib. Əgər onu orda maşın gözləyibsə, bu da «Unibank»ın kamerasına düşməliydi. Çünki bankın kamerası həmin yolu, həmin perimetri müşahidə edir... Çox təəccüblüdür ki, niyə istintaqın bu günədək gəldiyi konkret nəticə yoxdur. Bu qədər kameralar olub həmin ərazidə. Özü də suiqəsd Bakı Şəhər Baş Polis İdarəsinin yaxınlığında baş verib. Həmin ərazidə yəqin bizim polisin agentur şəbəkəsi var və ondan da istifadə edə bilər.


Rafiq Tağı

### «QATİLİN YAXALANMASINA ÜMİDLƏR AZALIR»

«Bu gün dekabrın 4-dür, bu günədək qətlin üstü açılmayıbsa, həmin şəxs yaxalanmayıbsa, qatilin yaxalanmasına ümidlər gündən-günə azalır. Belə qətllər isti izlərlə açıla bilər. Kameralar, agentur şəbəkə var və s... Bundan başqa, billinglər yada düşmür. Elmar Hüseynovun qətlini mobil telefonlarla açdılar. Birmənalı deyə bilərəm ki, Rafiq Tağı izlənib. Bu qətldə azı iki nəfər iştirak edib. Azı bir nəfər onu güdüb. Çünki qatil onu üzübağlı güdə bilməzdi. Rafiq Tağı avtobusdan düşəndə yəqin ki, qatilə siqnal verilib, o da hərəkətə keçib. Ona görə billinglər yardıma gələ bilər».

### «5 GÜNƏ QƏTLİ TƏŞKİL ETMƏK MÜMKÜN DEYİLDİ»

*- Sizin konkret versiyanız varmı, qətli kim törədib?*

- Mənim ehtimalım var. Ancaq açıqlamaq istəmirəm. Bu, subyektiv görünə bilər. Amma sizə deyim ki, məni narahat edən bir məqam var. Sanki ictimai rəy ancaq bir versiyaya yönəldilir – İran versiyasına. Mən bununla razı deyiləm. Düzdür, Rafiq Tağı ilə bağlı 2007-ci ildə fitva verilmişdi. Salman Rüşdi ilə bağlı fitva isə 1988-ci ildə verilib, özü də İmam Xomeyni tərəfindən. Amma o, hələ də sağ-salamatdır. Baxın, Salman Rüşdi haqda İmam Xomeyni fitva verib, İranın rəhbəri, Rafiq Tağı haqda fitvanı sıravi ayətullah verib. Necə olur ki, 5 ildə heç nə olmur, bu məsələ gündəmdən düşəndən, unudulandan sonra Rafiq Tağı yada düşür? Əsas kimi Rafiq Tağının noyabrın 11-də yazdığı məqalə götürülür. Amma yazının çıxdığı «Kulis.az» saytına baxanda orda İran haqda elə yazılar var ki, Rafiq Tağının məqaləsi məxməri tənqiddir. İkincisi, tutalım 11 noyabr yazısı ayətullahların diqqətini cəlb etdi. Texniki baxımdan 5 günə qətl təşkil etmək mümkün deyil. Niyə axı Rafiq Tağının başqa yazıları da götürülmür? Onun avqustda həmin saytda bir yazısı da çıxıb.

### «İRAN SƏFİRLİYİNİN ƏMƏKDAŞLARI MƏNİMLƏ GÖRÜŞDƏN QAÇDILAR»

*- Həmin yazıda söhbət nədən gedirdi?*

- Mən hələlik ictimai fikri hər hansı versiyaya yönləndirmək istəmirəm. Amma məncə, bu məsələdə İran versiyası ən az inandırıcıdır. Bu versiyanı istisna etmirəm, amma ən az inandırıcıdır. Hadisənin baş verdiyi küçə demək olar ki, İran dükanlarından ibarətdir. Bu qədərmi qeyri-peşəkardılar, bu qədərmi ağılsızdırlar? Onu da deyim ki, mən Təhqiqat Qrupunun üzvü kimi 3 gün İran səfirliyinin əməkdaşları ilə görüşmək istədim. Amma onlar mənimlə görüşdən qaçdılar. Qorxurlar. Bu da həmin kampaniyanın nəticəsidir.

**(davamı səhifə 12-də)**

# 93 manata yaşamaq olar?

**Prezidentin imzaladığı sərəncamla dekabrın 1-dən minimum maaş 8 manat 50 qəpik artırılıb. Bununla da maaşda minimum hədd 85 manatdan 93,5 manata qalxıb. Bu artımla bağlı suallarımıza Bakı sakinləri daha çox sualla cavab verdilər:**

- 93 manata yaşamaq olar?

- Olmaz ki?

- Xeyr...

- 93 manat nəyə çatır? Nə 85 manata, nə də 93 manata yaşamaq olmaz.

- 10 faiz nədir axı? Bu nə artımdır? Aldığımız pulun hamısı kommunal xərclərə gedir.

- 100 manat olsa idi yaxşı olardı.

**2012-Cİ İLDƏ MAAŞ ARTIMINA 800 MİLYON MANAT**

*Milli Məclisin İqtisadi Siyasət Komitəsinin üzvü Vahid Əhmədov adamların bu məsələdə fikirlərini bölüşür. Amma o, bunun son artım olmadığını, gələn il maaşlarda artım olacağını deyir:* «2012-ci ilin büdcəsində həkimlərin, müəllimlərin və ümumiyyətlə, büdcə təşkilatlarında çalışanların maaşlarının artırılması üçün büdcədən 800 milyon vəsaitin ayrılması nəzərdə tutulub».

**BİR KÖRPÜYƏ 125 MİLYON, ƏMƏKHAQQINA 8 MANAT 50 QƏPİK**

Azad İqtisadiyyata Yardım Mərkəzinin rəhbəri Zöhrab İsmayıl isə deyir ki, hökumət əməkhaqlarının artımı məsələsində çox ehtiyatlı addım atır. Mərkəz rəhbəri hesab edir ki, minimum əməkhaqqının 8 manat 50 qəpik qaldırılması onu göstərir ki, hökumətin sosial siyasəti insanlara yönəlməyib. Zöhrab İsmayıla görə, 25 milyon dollara tikiləsi bir körpüyə 125 milyon manat pul ayrılması fonunda minimum əməkhaqqının 10 faiz qaldırılmasını «uğurlu sosial siyasət» adlandırmaq çox yersiz görünür.

İqtisadçı mövcud vəziyyəti daha çox ölkədə sosial dialoqun və hökumətin qarşısına tələblər qoya biləcək həmkarlar təşkilatlarının olmaması ilə izah edir. Deyir heç bir sosial tələblə üzləşməyən hökumətdən bundan artığını gözləməyə də dəyməz.

**YOXSULLUQ HƏDDİNİ**


Zöhrab İsmayıl

**ÖRT-BASDIR ETMƏK CƏHDİ**

İqtisadçı Natiq Cəfərli isə minimum əməkhaqqının xəsisliklə qaldırılmasını daha çox yoxsulluq həddi ilə bağlı açıqlanan rəqəmlərin yalan olmasını ört-basdır etməyə yönələn bir addım hesab edir. İqtisadçı Azərbaycanda yoxsulluğun 48 faizdən 9 faizə düşməsi ilə bağlı prezidentin son açıqlamalarını yada salır. Deyir ki, belə faiz indiyə qədər açıqlanan 85 manatlıq minimum əməkhaqqına uyğun aparılıb. İqtisadçıya görə, Avropanın ən kasıb ölkəsi olan Bolqarıstandakı kimi Azərbaycanda da yaşayış minimumu 230 avro ətrafında hesablansa, ölkənin 70 faizə qədərinin yoxsulluq həddində yaşadığı üzə çıxar:«Bütün bu rəqəmləri ört-basdır etmək üçün, rəqəmlərlə oynamaq üçün, el dili ilə desək, belə «əndirəbadi» rəqəmlər ortalığa çıxarırlar. Mənə elə gəlir ki, 10 faizlik artımın bir səbəbi də bununla bağlıdır».

Son artımdan sonra Azərbaycanda minimum əməkhaqqı 93 manat 50 qəpik, yaşayış minimumu isə 116 manat civarındadır.

***Maarif Çingizoğlu***





Ən aktual, ən qaynar müzakirələr həftənin hər iş günü AzadlıqRadiosunun efirində. **Saat 17-dən 19-dək**. **AzadliqRadiosu.az** saytından verilişə qulaq asa və ya baxa bilərsiniz. Geciksəniz, AzadliqRadiosu.az saytında səs arxivindən verilişlərə sonradan da qulaq asa bilərsiniz.

Veriliş zamanı suallarınızı verin:

SMS: (+994 50 744 10 17) Telefon: 436 – 77 - 41

Elektron ünvan: efir@azadliqradiosu.az


# Metroda gedişhaqqını kim qaldırıb?

**Həmsöhbətimiz Bakı Metropoliteninin rəisi Tağı Əhmədovun köməkçisi Məmməd Bayramovdur.**

*- Məmməd müəllim, bir az əvvəl gənclər metroda gedişhaqqının artırılmasına etiraz olaraq aksiya keçirdilər. Qiymət artımı ilə bağlı adamlar arasında narazılıq var. Metropolitendə bu narazılıqlara münasibət necədir?*

- Siz müxbirsiz, bu şeyləri bizdən yaxşı bilirsiniz, Metropoliten qiymət artırmır. Metropoliten əmrə tabe təşkilatdır. Tarif (qiymət) Şurası 5 qəpik artırıb, biz də sərnişin daşıyanıq. İcraedici orqanıq, biz əmr vermirik.

*- Tarif Şurasına Metropoliten müraciət etməyib ki?*

- Metropolitenin heç bir müraciəti olmayıb.

*- Onda Tarif Şurası sizin müraciətiniz olmadan belə bir qərar qəbul edib?*

- Bir sərnişinin metroda daşınması 47 qəpiyə başa gəlir. Tarif Şurası da fikirləşir ki, 47 qəpiyin 32 qəpiyini dövlət nə vaxta qədər ödəyəcək.

*- Məmməd müəllim, adamların etirazını, narazılığını haqlı sayırsınızmı?*

- Düşünmürəm ki, adamlar bu məsələdə haqlıdır. Bilirsiniz, 5 qəpik artım göz qabağında olan nəqliyyat növündədir, narazılıq da bununla bağlıdır. Bazarda birdən-birə ət 2-3 manat bahalaşır, amma heç kim ona etiraz etmir. İndi adamlar narazılıq edir.

*- Məmməd müəllim, gənclər qiymət artımına etiraz etdi və iki nəfəri də polis saxladı. Dekabrın 2-si və 3-də metrodan istifadə etməməklə bağlı kampaniya da başlayıb...*

- Mən indi eşitdim ki, aşağıda, bu ətrafda adamlar yığışıblar. Bunlar dövlətçilik əleyhinə gedən adamlardır.

*- Niyə belə hesab edirsiniz?*

- Dövlət belə məsləhət bilibsə, qiyməti qaldırıbsa, biz ona nə edə bilərik ki?

*- Adamların narazılığı Metropolitendə müzakirə edilməyib ki?*

- Metropoliten icraedici qurumdur, etiraz edib nə edə bilər ki...

***Maarif Çingizoğlu***

# Sabiq ABŞ səfiri Kozlariç: "Korrupsiya Azərbaycan üçün faciədir"


Riçard Kozlariç

**1994-97-ci illərdə ABŞ-ın Azərbaycanda səfiri olmuş Riçard Kozla - riçlə müsahibə. Onunla noyabrın 28-29-da Vaşinqtonda Beynəlxalq Sülh Uğrunda Karnegi Fondunda "Cənubi Qafqaz: Müstəqilliyin 20 ili" mövzusunda keçirilən konfransda söhbətləşdik.**

*- Əgər Cənubi Qafqaz ölkələrinin müstəqil olduğu son 20 ili analiz etsək, onların hansını regionda lider dövlət saymaq olar?*

- Kiminsə lider olduğunu demək çətindir. Təbii ehtiyatları baxımından, əlbəttə ki, regionun ən zəngin ölkəsi Azərbaycandır. Əhali baxımından da Azərbaycan həmişə Cənubi Qafqazda ən böyük ölkə olub. Amma mən regionda bütün dövlətləri vahid gündəm əsasında öz ətrafında toplamağa çalışan, sülh, inkişaf, münaqişələrin həlli məsələsində aparıcı rol oynaya bilən ölkə görmürəm. Xüsusən Qarabağ münaqişəsinə görə, Azərbaycan və Ermənistan bu rolu oynaya bilməz.

*- Sizcə, Azərbaycanın zəngin ehtiyatlarından ölkənin bütün vətəndaşları faydalana bilirmi?*

- Mən Bakıda sonuncu dəfə 2002-ci ildə olmuşam və bilirəm ki, o vaxtdan bəri Azərbaycanda çox şey dəyişib. Amma oradan gələn insanlarla söhbətlərim əsasında deyə bilərəm ki, o zəngin ehtiyatlardan heç də hamı bəhrələnə bilmir. Təəssüf ki, bəziləri başqalarına nisbətən bundan daha çox xeyir görürlər.

Mən bu konfransda da dedim - korrupsiya Azərbaycanın regionda güc mərkəzinə çevrilməsini əngəlləyən, onun potensialının tam açılmasına mane olan çox böyük bir problemdir. Mən indi bir ovuc insan tərəfindən mənimsənilən pulun məbləğini, sadəcə, təsəvvür edə bilmirəm. Halbuki həmin pullar xalqa xərclənməlidir. Qeyri-neft sektoru inkişaf etdirilməli, yaxud, sadəcə, kasıb insanların problemlərinin həllinə yönəldilməlidir. Korrupsiya Azərbaycan üçün faciədir.

*- Bəziləri Azərbaycanı diktatura adlandırır, bəziləri avtoritar dövlət, bəziləri isə, sadəcə, müəyyən problemləri olan gənc respublika. Sizcə, son 20 ildə Azərbaycan demokratiya yolunda nə qədər məsafə qət edib?*

- Azərbaycan elan edib ki, Avropaya inteqrasiya etmək istəyir. Amma bu ritorikanın icrasına gəldikdə, işlərin tamam əks istiqamətdə getdiyini görürük. Bakıda sonuncu dəfə 2002-ci ildə olsam da, məlumatları izləyəndə - mətbuata qarşı məhdudiyyətləri, siyasi müxalifətin yox edilməsini, adi insan haqlarına, o cümlədən dini azadlıqlara şərait yaratmaqdan imtina olunmasını görəndə icra prosesinin bəyan edilənlər istiqamətində yox, əks istiqamətdə getdiyini anlayırsan. Bu belə davam edə bilməz. İndi regionda elə proseslər gedir ki, Azərbaycan xalqı onlara diqqət etməlidir. Xüsusən də dövlət rəsmiləri.

*- Yəqin ərəb inqilablarını nəzərdə tutursunuz...*

- Mən Azərbaycanın ətrafında baş verənlərin hamısını nəzərdə tuturam. Həmin hadisələr niyə baş verir? Çünki həmin ölkələrdəki insanlar öz hökumətlərindən demokratik islahatların aparılmaması, ifadə azadlığına şərait yaradılmaması, məmurların korrupsiyaya bulaşmasından narazıdırlar. Və bunun ciddi nəticələri olur. Məncə, müstəqillik əldə etməsindən 20 il keçəndən sonra, yəni indi daha "biz keçid dövrünü yaşayırıq", "Ermənistanla müharibə şəraitindəyik" kimi bəhanələrdən istifadə edə bilməz. İndi ritorikanı reallığa çevirməyin vaxtıdır. Və buna imkan da var. Gec deyil.

**Müsahibənin tam mətnini AzadliqRadiosu.az saytından oxuyun.**

***Rövşən Qənbərov***



# Azərbaycanda iş yerləri artırsa, niyə maaş alanların sayı azalır?

**Turan Informasiya Agentliyi statistik məlumatlarda ziddiyyət tapıb. Agentlik yazır ki, Azərbaycanın Dövlət Statistika Komitəsinin məlumatına görə, 2011-cu ilin əvvəlində əməkhaqqı alan muzdlu işçi sayı 1 milyon 382 min 900 nəfər idisə, oktyabrın əvvəlində 1 milyon 366 min 900 nəfər olub. Başqa sözlə, muzdlu işçi sayı il başlanandan 16 min nəfər və ya 1,2% azalıb.**

Dövlət Statistika Komitəsinin digər məlumatına görə, ilin əvvəlindən ölkədə 70 min yeni iş yeri açılıb. Əgər maaş alan muzdlu işçi azalıbsa, onda yeni iş yerləri hansı prinsiplə işləyən iş yeridir? Ya burda maaş vermirlər, ya da günəmuzd, təsadüfi işdir.

Turan İnformasiya Agentliyinin buna izahı belədir ki, hökumət yeni iş yerlərinin açıldığını deyəndə 1 mln nəfərin işə düzəlməsini yox, işə götürülə bilən adamların sayını nəzərdə tutur: "Məsələn, hansısa regionda emal müəssisəsi yaradılır və orada 100 nəfər işə düzələ bilər. Hökumət açılan iş yerlərinə 100 yer əlavə edir. Hökumətə maraqlı deyil ki, orda heç olmasa 10 nəfər işə düzəldimi?"




Azərbaycanın bölgələrində baş verənlər haqda həftəlik proqram. **AzadlıqRadiosu** bölgə müxbirlərinin hazırladığı reportajlarda əyalətlərin nəbzini hiss etmək üçün hər həftənin bazar ertəsi, **saat 20.35**-də efirə qoşulun. Verilişin təkrarı həftəboyu **AzadlıqRadiosu**nun efirində səslənir.


İran. Tehran. Britaniya səfirliyi qarşısında keçirilən etiraz aksiyasından görüntü

# «Günah britaniyalılardadır!»

**İranda «Napoleon dayı» adlı məşhur satirik əsər var. Bu əsərin qəhrəmanı İranda baş verən bütün hadisələrdə Britaniyanın barmağını görürmüş. 971-ci ildə çıxmış kitab əsasında sonradan televiziya serialı da çəkilib. Bu seriala indiyə qədər milyonlarla iranlı baxıb. Oradakı sitatları iranlılar əzbər bilirlər. Əlbəttə, Napoleon dayı uydurma təxəyyülün məhsuludur. Ancaq bunun həqiqətdə də müəyyən əsasları var.**

Kitaba giriş yazmış Azar Nafisinin sözlərinə görə, kitabın müəllifi İraj Pezeshkzad bu əsəri baş qəhrəmanının uşaqlığından təsirlənərək ərsəyə gətirib. Həmin dövrdə siyasətçilərin əksəriyyətinə «Britaniyanın nökəri» damğası vurulurdu. Bu inanc o qədər dərinə işləmişdi ki, hətta bəzi iranlılar iddia edirdilər ki, Hitler özü də Britaniyanın oyuncağı imiş və Almaniyanın Londonu bombalaması da Britaniya kəşfiyyatının planı olub.

**İRANLILAR BÜTÜN PİS HADİSƏLƏRDƏ BRİTANİYALILARI GÜNAHLANDIRIRLAR**

Hətta ruhanilərin hakimiyyətə gəlməsində belə. 1979-cu il islam inqilabının ilk illərində məşhur bir zarafat vardı - Mollanın saqqalını qaldırsan, görərsən ki, altında «Made in England» yazılıb. Britaniyaya qarşı düşmənçiliyin isə tarixi kökləri var. Britaniya 1953-cü ildə İranın məşhur baş naziri Mohammad Mossadeghin devrilməsi ilə nəticələnən çevrilişi həyata keçirməkdə ABŞ-ın Mərkəzi Kəşfiyyat İdarəsinə kömək edib. Ancaq britaniyalılara olan inamsızlıq yüz illərlə əvvəllərə gedib çıxır. Britaniyanın İranda siyasi-iqtisadi hegemonluq etdiyi dövrə.

İran parlamentinin üzvü Hamid Rasayi Britaniya səfirliyinin qarşısında keçirilən etiraz aksiyasında çıxış edib. O, çıxışında Britaniyaya qarşı ittihamları sadalayıb. Hamid Rasayi deyib ki, Britaniya səfirliyi ölkəni haqq yolundan çıxarmaq üçün çox böyük səy göstərib. O, Britaniyanı Səddam Hüseyn rejiminə kimyəvi silah verməkdə də ittiham edib. Deyib ki, bu silahdan sonradan 1980-88-ci illərdəki İran-İraq müharibəsində İrana qarşı istifadə olunub. Hamid Rasayi Britaniyanın İran və ABŞ-ın terrorçu təşkilat siyahısına saldığı Mücahiddin Xalq Təşkilatını dəstəklədiyini də bildirib: «Həmin təşkilatın terror aktlarının çoxu məhz Britaniyanın dəstəyi ilə həyata keçirilib».

Rasayi Britaniyanın 2009-cu il prezident seçkilərindən sonra İranın siyasi hakimiyyətini silkələmiş etiraz aksiyalarında həlledici rol oynadığını da bildirib. Həmin etiraz aksiyaları zamanı Britaniyanın Tehrandakı səfirliyinin bir neçə əməkdaşı da həbs olunmuşdu. Rasayi deyib ki, Britaniyaya qarşı dediklərini sübut etmək üçün səfirliyin içindən xüsusi məxfi sənəd axtarmağa ehtiyac yoxdur: "Hamıya məlumdur ki, bu səfirlik casus sığınacağıdır".

***Golnaz Esfandiari***

# 77 nəfəri öldürən qatil həbsxanaya getməyəcək?

Norveçdə məhkəmə ekspertizası iyul ayında 77 nəfəri öldürən Anders Behring Breivikin ruhi xəstə olduğu qənaətinə gəlib. Ekspertizanın rəyini prokuror Osloda keçirilən mətbuat konfransında elan edib. Deyib ki, rəyə görə Breivik öz uydurduğu reallıqlarda yaşayan anormal insandır və qətlləri törədərkən də eyni ruhi vəziyyətdə olub. Ekspertizanın bu rəyindən sonra müttəhimin cəzasını çəkmək üçün həbsxanaya yox, müalicə üçün xəstəxanaya yerləşdirilməsi daha real görünür. Əgər məhkəmə psixiatr rəyini qəbul eləsə, Breivik xəstəxanaya yerləşdiriləcək və hər 3 ildən bir müalicə olunub-olunmadığını müəyyənləşdirmək üçün komissiya qərar verəcək.


Anders Behring Breivik (solda), 25 iyul 2011

# "Rafiq Tağını izləyən kameraların yaddaşında çox şey var"

**(əvvəli səhifə 9-da)**

**«HRANT DİNKİN İŞİNDƏ OLDUĞU KİMİ...»**

- Təhqiqat Qrupunun üzvü Mehman Əliyev AzadlıqRadiosuna demişdi ki, Rafiq Tağının ölümü hakimiyyət dairələrinə, azad sözü boğmaq istəyənlərə bağlıdır...

- Məsələ bundadır ki, çoxları həmin versiyanı səsləndirməyə qorxur. Rafiq Tağının hakimiyyətə qarşı yazıları da olub axı. Bir məqama da diqqət edək, hökumət rəsmisi Əli Həsənovun həmin qətllə bağlı şərhinə. O deyir ki, Rafiq Tağının Azərbaycan hökuməti ilə heç vaxt problemi olmayıb. Belə çıxır ki, problemi olan jurnalistlər öldürülməlidir?

*- Sizin versiyanız Mehman Əliyevin dedikləriylə üst-üstə düşürmü?*

- Rafiq Tağının qətli yazarlar, jurnalistlər arasında qorxunu, xofu gücləndirib. Dünən təsadüfən bir şey öyrəndim, adını çəkməyəcəyim bir yazıçı naşirə zəng vurur ki, başıma bir iş gələrmi görəsən?.. Amma bir neçə günə adi bir islam fanatı tapıb həbs etsələr, mən buna heç təəccüblənmərəm. Hrant Dinkin işində olduğu kimi. Bununla da qətlin sifarişçisi də, icraçısı da kənarda qala bilər.

***Şahnaz Bəylərqızı***

# Obama dükandan Amerikanı tənqid edən kitab aldı



**Ötən şənbə Amerika prezidenti Barak Obama öz ailəsi ilə birlikdə Ağ Evə yaxın kiçik bir kitab dükanına baş çəkib. O, pakistanlı jurnalist Əhməd Rəşidin 11 sentyabr terrorundan sonra Amerikanın Əfqanıstanla bağlı xarici siyasətini tənqid edən kitabını alıb. Prezidentin kitab dükanına noyabrın 26-da getməsi təsadüfi deyil. Noyabrın son cümə günü iri biznes alıcılara böyük endirimlər təklif edir. Bu, müştərilərin supermarketlərə kütləvi axınına səbəb olur. Buna ABŞ-da "Black Friday" (Qara cümə) deyirlər.**

İri biznes kiçik biznesin "qənimi" sayılır. Buna cavab olaraq kiçik biznes də noyabrın son şənbəsində özünə diqqət cəlb etmək üçün endirimlər təklif edir. Bu da Small Business Saturday (Kiçik biznes şənbəsi) adlanır. Amerika prezidenti də kitab dükanına getməklə kiçik biznesə dəstəyini nümayiş etdirib. "Kiçik biznes Amerika iqtisadiyyatının bel sütunudur" - deyə o bildirib.

"Descent into Chaos: The U.S. and the Disaster in Pakistan, Afghanistan, and Central Asia" adlanan kitabda bildirilir ki, Qərb ölkələrinin Əfqanıstanda demokratik dövlət qurmaq cəhdləri iflasa uğrayıb, Amerika və NATO-nun strategiyası nüvə silahına malik Pakistanda qeyri-stabilliyə, Əfqanıstanda isə narkotika ticarəti ilə məşğul olan Talibanın güclənməsinə gətirib çıxarıb. Prezidentin qızları da bir qucaq kitab alaraq öz kitabxanalarını daha da zənginləşdiriblər.

Məsələn, 13 yaşlı Malianın seçdiyi kitablar arasında Brian Selznickin "The Invention of Hugo Cabret" adlı əsəri də var. Bu, Parisdə qüllə saatı xidmətçisinin macəralarından bəhs edən sehrli hekayətdir. 10 yaşlı Sasha isə dükanın fəlsəfə bölümündən Dzen-buddizm və dinlər haqda kitablar seçib.

***Rövşən Qənbərov***

# Kitab vergidən azad edilsin?


Aqil Abbas

**«Böyük Britaniyada, Litvada, İspaniyada, İtaliyada, hətta Gürcüstanda, Moldovada kitab üzərində Əlavə Dəyər Vergisi sıfır faizdir. Fransada bir neçə gün öncə ƏDV 5 faizdən 5,5 faizə qaldırılıb. Hazırda bununla bağlı Fransada etirazlar gedir ki, 0,5 faiz artım ölkədə kitab bazarını dağıdacaq. Ümumiyyətlə, dünyanın əksər ölkələrində kitab üzərində ƏDV 0 faizdir. Azərbaycanda da ƏDV vergisinin götürlməsi bu sahədə çox böyük əhəmiyyəti olacaq».**

Bunu «Əli və Nino» kitab evi şəbəkəsinin direktoru Nigar Köçərli deyir. Onun fikrincə, Azərbaycanda kitab bazarındakı problemlərin ən başlıcası ƏDV-dir. Hazırda Azərbaycanda kitaba görə ƏDV 18 faizdir.

Yeri gəlmişkən, noyabrın 30-da Yazıçılar Birliyində «Əlavə Dəyər Vergisinə yox deyək! Kitaba dəstək verək!» devizi altında dəyirmi masa keçirilib.

**«BU ÖLKƏYƏ KİTAB LAZIMDIR, YOXSA LAZIM DEYİL?»**

Deputat Sabir Rüstəmxanlı bu sualla hökumətə müraciət etməyi məsləhət görür. Deyir ki, bu sahəni inkişaf etdirmək üçün kitab üzərindən ƏDV hökmən götürülməlidir:«Çünki kitaba görə, ən azı 4 dəfə ƏDV verilir. Kağızın istehsalına, kağızın özünə, mətbəə işinə və kitabın satışına görə ayrı-ayrılıqda 4 dəfə ƏDV tutulur».

Deputat Aqil Abbas isə hesab edir ki, ƏDV kitabdan gəlir götürməyi çətinləşdirir. Ona görə də bir çoxları kitab satışından uzaqlaşır.

***Nüşabə Fətullayeva***

## AzadliqRadiosu.az saytında həmçinin oxuyun



Əkrəm Əylisli: **«Rafiq Tağıya dəyən o bıçaqlar ki var...»**



**"Ulduz" jurnalında "hakimiyyət dəyişdi"**



ELÇİN: **"Cavid məhv edildi, Vahid sağ qaldı. Niyə?"**



**Orxan Pamukdan hindulara dəstək**



**Misirli yazıçı dünyanın ən nüfuzlu mütəfəkkiri seçildi**

# 2 aprel məhbuslarının apelyasiya şikayəti təmin olunmadı

**İctimai Palatanın bu il aprelin 2-də keçirdiyi aksiya ilə əlaqədar ittiham olunan Ülvi Quliyev, Elnur Məcidli, Rüfət Hacıbəyli və Əhəd Məmmədlinin apelyasiya şikayəti təmin olunmayıb. Bu barədə qərar dekabrın 1-də Bakı Apelyasiya Məhkəməsində çıxarılıb.**

**VƏKİLLƏR BƏRAƏT İSTƏDİ...**

*Proses başlanan kimi Ülvi Quliyev və Rüfət Hacıbəylinin vəkili Osman Kazımov çıxış edərək müdafiə etdiyi şəxslərə bəraət hökmü çıxarılmasını istəyib. Ülvi Quliyev deyib ki, aprelin 2-də rüşvətxorluğa, korrupsiyaya etiraz olaraq aksiyada iştirak edib. Buna görə saxta ittihamlarla həbs olunub:* "Dörd gənci saxta ittihamlarla həbs etməyin özü cinayətdir. Bu cinayətə görə də hər kəs cavab verəcək. Bizim burada mühakimə olunmağımız siyasi sifarişdir".

*Ülvi Quliyev aksiya zamanı asayişi pozmadığını, əksinə, polis zorakılığına məruz qaldığını deyib:* "Aksiyada fəaliyyətimiz "İstefa", "Azadlıq" şüarları səsləndirməkdən ibarət olub. Biz rüşvətxor məmurların istefasını tələb etmişik. Millətin ləyaqətini tapdalayanlar bu ölkədə demokratiya qura bilməzlər. Biz diktator rejimə etirazımızı bildirmişik".

*Rüfət Hacıbəyli də 8 aydır ki, saxta ittihamlarla həbsdə saxlandığını deyib:* "Bu saxtakarlığa imza atan hakimlər, prokurorlar tarix qarşısında cavab verəcəklər".

*Əhəd Məmmədlinin vəkili Yalçın İmanov məhkəmənin nəzərinə çatdırıb ki, Nəsimi Rayon Məhkəməsində vəkillərin qaldırdıqları çoxsaylı vəsatətlər təmin edilməyib:* "Məhkəmə araşdırması birtərəfli və ittiham tərəfinin xeyrinə aparılıb. Apelyasiya Məhkəməsindən də ədalətli qərar gözləmirik. Burda da ilkin məhkəmə iclasında vəsatətlərimizin təmin edilməməsi yekun qərarın nə ilə bitəcəyini aydın göstərir. Mitinq təşəbbüs qrupu aksiyanın dinc keçirilməsinin tərəfdarı olub. Hökumət isə dinc aksiyanın keçirilməsinə şərait yaratmayıb. Halbuki Avropa Məhkəməsi dinc aksiyaların keçirilməsi üçün Azərbaycan hökumətinə tövsiyələr verir. Nəsimi Rayon Məhkəməsi həqiqətin üzə çıxmasında maraqlı olmayıb. Məhkəmə çəkişməsi prinsipi pozulub".

Vəkil Əhəd Məmmədli barəsində bəraət hökmünün çıxarılmasını istəyib.

*Elnur Məcidlinin vəkili Əsabəli Mustafayev də Nəsimi Rayon Məhkəməsində istintaqın düzgün aparılmadığını bildirib. O, deyib ki, sübutlar ittiham tərəfinin xeyrinə olan hissədə araşdırılıb:* "32 şahiddən yalnız 14-ü dindirilib".

**PROKUROR MƏHBUSLUQ TƏLƏB ETDİ...**

Sonra Elnur Məcidli çıxış edib: "Meydanlara çıxmaqda məqsədimiz Azərbaycanı işıqlı gələcəyə aparmaq olub. Mən buna görə, azadlıqda olduğu kimi, məhbəsdə də mübarizə aparıram. Azərbaycanı işıqlı görməyim üçün bu gün burda əyləşmişəm. 8 aydır məhbəsdəyəm, bu 8 ayda özümü azadlıqda olduğumdan da mübariz hiss edirəm. Bizim işimiz sifarişlidir, sifariş verilib,



Müxalifət fəallarının işi üzrə məhkəmə iclaslarından biri, arxiv foto

hakim də qüvvədə saxlayacaq".

Dövlət ittihamçısı Ehtiram Baxşəliyev isə Nəsimi Rayon Məhkəməsinin hökmünü ədalətli hesab etdiyini və qüvvədə saxlanmasını xahiş edib.

**20 DƏQİQƏLİK HAKİM MÜŞAVİRƏSİ VƏ... HÖKM QÜVVƏDƏ QALDI**

Hakim heyəti müşavirə otağında 20 dəqiqəyə yaxın məşvərət keçirəndən sonra məhkəmə salonuna qayıdaraq Nəsimi Rayon Məhkəməsinin çıxardığı hökmün qüvvədə saxlandığını elan edib. Bu il aprelin 2-də İctimai Palatanın keçirdiyi razılaşdırılmamış aksiya zamanı saxlanılan Ülvi Quliyev, Əhəd Məmmədli, Elnur Məcidli və Rüfət Hacıbəyli dövlət nümayəndəsinə müqavimət göstərməkdə, ictimai qaydaların pozulmasında fəal iştirak etməkdə təqsirləndirilib. Oktyabrın 10-da Ülvi Quliyev 3 il, Əhəd Məmmədli 3 il, Elnur Məcidli 2 il, Rüfət Hacıbəyli isə 1 il 6 ay müddətinə azadlıqdan məhrum edilib. Onlara qarşı həm də 6028 manatlıq mülki iddia qaldırılmışdı. Ancaq hakim mülki iddianı baxılmamış saxlamışdı.

***Esmira Cavadova***

# Müsəlman tələbələr üçün ayrıca kran qoyublar



footbaths for muslims

**Boston Universitetində ayaqyolu və vanna otaqları yenicə təmirdən çıxıb. Tələbələrin şikayətini nəzərə alaraq bu dəfə otaqlarda müsəlmanların ayaqlarını yuması üçün xüsusi kranlar da quraşdırılıb. Universitetin ingilis dili mərkəzi vanna otaqlarında bu yeniliyi öz hesabına hazırlatdırıb. Bu mərkəzdə dil öyrənən tələbələrin əksəriyyəti müsəlmanlardır. Onlar dəstəmaz vaxtı ayaqlarını yuyanda otağın döşəməsini batırırlarmış. Bu da digər tələbələrin narazılığına səbəb olurmuş. Mərkəzin direktoru Marqo Veldivia deyib ki, bir çoxlarının müraciətini nəzərə alaraq ayaq yumaq üçün vannalar quraşdırıblar: "Artıq müsəlman tələbələrdən çoxlu təşəkkür almışıq. Daha çirkli sular yerə tökülmür, narazı qalan da olmur".**

Amerikada artıq bir neçə ştatdakı tədris müəssisələrində müsəlman tələbələr üçün belə vannalar hazırlanır. İlk olaraq ayaq vannaları Miçiqan, Dirborn və Vaşinqton ştatlarındakı universitetlərdə quraşdırılmışdı.

# Müsəlmanların öz «Facebook»u olacaq: **salamworld.com**



Türkiyədə bir qrup iş adamı müsəlmanlar üçün «Facebook» tipli sosial şəbəkə yaratmaq barədə planı açıqlayıb. Saytın ünvanı salamworld.com olacaq və 2012-ci ildən istifadəyə veriləcək. Təşəbbüsün müəlliflərindən olan Əhməd Əzimov bildirib ki, salamworld.com saytı gəncləri sağlam İslam dəyərləri ətrafında birləşdirməyə, bu zaman hər hansı qeyri-sağlam informasiya yaymamağa çalışacaq. Sayt İstanbulda yerləşəcək, Moskva və Qahirədə ofislərə, habelə 30 ölkədə əlaqələndiricilərə malik olacaq. Salamworld.com 3 ildə 50 milyon istifadəçi cəlb etmək niyyətindədir.

*Əslən Dağıstandan olan Ə.Əzimov deyir ki, layihənin əsas məqsədi dinin qadağan etdiyi mövzulardan uzaq bir onlayn şəbəkə yaratmaqdır:* «Buna nail olmaq üçün bizim moderatorlardan ibarət böyük komandamız və filtrlərimiz olacaq. Ancaq biz istifadəçilərin özlərinə güvənirik, ümid edirik ki, onlar da moderatorluq edəcək, mövzuları süzgəcdən keçirəcəklər».

Ə.Əzimov layihənin maliyyə mənbələri haqda danışmaqdan imtina etsə də, bildirib ki, maliyyə ilə bağlı heç bir problem yoxdur, investorlar müsəlman dünyasından olan iş adamlarıdır. Saytda istifadəçilərin təklif etdikləri mövzuların müzakirəsindən başqa, müxtəlif dini tövsiyələr xidməti də təklif olunacaq. Bundan əlavə, burada ayrı-ayrı şəhərlərdə məscidlərin yerləri, halal məhsulların satıldığı dükanlar barədə bələdçi xidməti də fəaliyyət göstərəcək. Ə.Əzimovun dediyinə görə, salamworld.com onlayn-ensiklopediya olacaq-bir növ İslam «Wikipedia»sı.

## İməcilik



# AzadlıqRadiosunda verilişlər:

| | |
|---|---|
| 8:00 | Qafqaz Qovşağı /Azadlıq Bölgələrdə / Kontekst / Şəffaflıq / Overtime |
| 9:00 | İz / Şəffaflıq / İşdən sonra |
| 10:05 | Qərb musiqisi |
| 11:00 | Xəbərlər |
| 11:05 | Qərb musiqisi |
| 12:00 | Xəbərlər |
| 12:05 | Qafqaz Qovşağı / Qaynar Xətt / Can Bakı / Iz / Şəffaflıq / 14-24 / Şəffaflıq / Azadlıq Bölgələrdə |
| 13:00 | Xəbərlər |
| 13:05 | Qərb musiqisi |
| 14:00 | Xəbərlər |
| 14:05 | Overtime / Kontekst / Qaynar Xətt / Can Bakı / Pen club / Overtime / Iz / Şəffaflıq |
| 15:00 | Xəbərlər |
| 15:05 | Qərb musiqisi / Qaynar Xətt / Can Bakı |
| 15:30 | Amerikanın Səsi / İz |
| 16:00 | Xəbərlər |
| 16:05 | Qərb musiqisi / İşdən sonra |
| 17:00 | Xəbərlər |
| 17:05 | İşdən sonra |
| 18:00 | Xəbərlər |
| 18:05 | İşdən sonra / Pen Klub |
| 19:00 | Qərb musiqisi |
| 20:00 | Xəbərlər |
| 20:05 | Kontekst / Azadlıq Bölgələrdə / Şəffaflıq / Qaynar Xətt / İslam və Demokratiya / 14-24 / İz |
| 20:30 | Amerikanın Səsi / Qafqaz Qovşağı / 14-24 |
| 21:00 | Qərb musiqisi |
| 22:00 | Xəbərlər |
| 22:05 | Kontekst / 14-24 / Şəffaflıq |
| 23:00 | Xəbərlər |
| 23:05 | Overtime / İşdən sonra / AzadlıqFM / Overtime |
| 00:00 - 8:00 | Amerikanın Səsi / Qərb musiqisi |

**Qeyd:** Kəsr xətti ilə verilmiş – eyni saatlara düşən verilişlər həftənin günlərindən asılı olaraq növbə ilə təkrar gedir...

# Simsiz teleqraf

## Hər şəraitə dözən milli şagirdlər



***Yüklədi: Rizvan Məmmədov***

Sizdə də maraqlı video, foto və ya səs yazısı varsa bizə göndərin. Materialı kompyuterinizdən yükləmə səhifəsinə daxil olmaqla, yaxud MMS kimi mobil telefondan yollaya bilərsiniz. Ehtiyac varsa anonimliyi təmin edirik.

**Azərbaycandan:** (050) 213-56-30,

**Xaricdən:** (+420) 602 517 052

**Görüntüləri elektron poçtla da yollamaq olar:**
efir@azadliqradiosu.az

# AzadliqRadiosu.az®

HotBird 13°E

24 saat

Kanalın adı
Radio bölümündə
Radio Free Europe/Radio Liberty
Pol: V
Tezlik: 12.226 Ghz
Sürət: 27.500 MS/s

necə dinləməli...

42° E

Kanalın adı
Radio bölümündə
Azadliq VOA Azeri
Pol: H
Tezlik: 11.862 Ghz
Sürət: 27.500 MS/s

## Mobil telefonda canlı:

İndi 3G, GPRS və ya Wi Fi-la
günün 24 saatı
radiomuzu canlı dinləmək olur...
Ətraflı: **AzadliqRadiosu.az**-da

## “AzadlıqFM”in son buraxılışı

Facebook-a şəxsi şəkillərini qoyanlar...




**E-mail:** efir@AzadliqRadiosu.az

**Qaynar Xətt:** 436-77-41

Bizimlə əlaqə:

**SMS:** 050/ 744-10-17
**MMS:** 050/ 213-56-30

Azərbaycan Respublikası Ədliyyə Nazirliyində mətbu nəşrlərin reyestrinə daxil edilib, №3080

**“Fərqli düşüncə” jurnalının xüsusi buraxılışı**

Təsisçi və redaktor: Ş.A.Namazov

Bülleten redaksiyada səhifələnib, “Qanun” mətbəəsində çap olunub
Mətbəənin ünvanı: Bakı, Tblisi prospekti, 2-ci Alatava, 9

Redaksiyanın ünvanı: Bakı, F.Şahbazov küçəsi, 18
email:fdjurnal@gmail.com
Tiraj: 10000 nüsxə
Pulsuz